**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜNAY RZA QIZI SƏFƏROVA**

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN ƏXLAQ TƏRBİYƏSİNDƏ ETNOPEDAQOJİ MATERİALLARDAN İSTİFADƏ İMKANLARI

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**N A X Ç I V A N – 2 0 1 6**

**İş** Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**ELMİ RƏHBƏR**: - Pedaqogika üzrə elmlər doktoru, **professor İ.İ.Əliyev**

**RƏSMİ OPPONENTLƏR:** - Pedaqogika üzrə elmlər doktoru, **professor F.A.Rüstəmov**

- Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **V.M.Rzayev**

**APARICI TƏŞKİLAT: Bakı Dövlət Universitetinin "Pedaqogika" kafedrası**

**Müdafiə** 12 mart 2016-ci il tarixdə saat $11^{00}$ -da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurası əsasında yaradılmış B/FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, əsas bina, I mərtəbə, Böyük akt zalı.

**Dissertasiya** ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** "___" fevral 2016-cı il tarixdə göndərilmişdir.

**B/FD. 02.121 DİSSERTASİYA ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

## Tədqiqatın ümumi səciyyəsi

**Mövzunun aktuallığı**. Bu gün tərbiyə işinin çox vacib komponenti şəxsiyyətin əxlaqi mədəniyyətinin formalaşdırılması, onun mənəvi insan kimi inkişafı prosesidir. Yüksək əxlaqi mədəniyyət yetişən nəslin sosial-mədəni həyatının meyarı, ölçüsüdür. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşdırılması hər bir xalqın mədəni irsində əks olunmuş milli və ümumbəşəri dəyərlərin təzahürüdür ki, bu da tərbiyə prosesində digər vasitələrlə yanaşı etnopedaqoji mədəniyyətə, xalqın zəngin mənəvi-əxlaqi xəzinəsinə, yaxşı adət-ənənələrinə əsaslanmağı zəruri edir. Xalq tərbiyəsi müasir gəncin, hər nə qədər yeniləşmiş olsa da, sosial-mədəni həyatının əhəmiyyətli hissəsini təşkil edir.

Gələcək vətəndaş – əməkçi, müəllim, həkim, mühəndis, valideyn xalqın etnopedaqoji mədəniyyətini mənimsəməklə öz ailə və cəmiyyət-ictimai həyatını düzgün qura biləcəyinə sözün tam mənasında təminat yaratmış olur. Aydın həqiqətdir ki, müasir cəmiyyətimizdə neqativ halların, tendensiyaların yaranma səbəbləri və yayılma arealının vüsəti həm də ona görədir ki, gənclərin tərbiyəsi işində, həyata yönəlikliyi sahəsində etnopedaqoji sərvətlərdən kifayət qədər yararlanmırıq. Xalqın pedaqoji mədəniyyəti uşaqların mənəvi inkişafında, şəxsiyyət kimi yetişməsində əhəmiyyətli yerə və mövqeyə malikdir. Xalqın tərbiyəvi təcrübəsinin məzmun istiqamətinin yüksək elmi-pedaqoji əsasları vardır və pedaqoji prosesdə bu imkanlardan bacarıqla istifadə etmək lazımdır.

Pedaqoji və psixoloji tədqiqatların nəticələri göstərir ki, tərbiyə prosesini təsirli edən cəhət onun müəyyən emosiya doğurması, hisslərə təsir göstərməsi, ürəyi ehtizaza gətirməsidir. Xalq yaradıcılığı nümunələri üzrə verilmiş mətnlər kiçik məktəbyaşı dövründə uşaqlarda güclü emosional vəziyyət yaradır, onların hisslərinə təsir edir. Folklor mətnləri bu yaşda olan uşaqların əxlaq tərbiyəsində çox mühüm vasitədir. Bu baxımdan yetişən nəslin tərbiyəsi zamanı etnopedaqoji materiallardan istifadənin aktuallaşdığı bir daha təsdiq edilmiş olur.

Bu gün əsası Əliheydər Həşimov tərəfindən qoyulmuş Azərbaycan etnopedaqogika elmi haqqında qürurla danışmaq olar. Alimin Azərbaycan etnopedaqogikası sahəsində yaratdığı elmi məktəb bu gün də onun ideyalarını uğurla davam etdirir. Professor İ.İ.Əliyev, pedaqogika üzrə fəlsəfə doktorları J.Ə.Mustafayeva, S.Q.Həsənova, X.İ.Səlimxanova və başqaları etnopedaqogikanın müxtəlif sahələri üzrə maraqlı elmi tədqiqatlar aparmışlar. Bununla belə, kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində xalq pedaqogikasından istifadə ayrıca problem kimi dissertasiya tədqiqatı

səviyyəsində indiyədək öyrənilməmişdir. Baxmayaraq ki, professor Ə.Ş.Həşimovun və İ.İ.Əliyevin tədqiqatlarında əxlaq tərbiyəsi, onun metod, vasitə və priyomları haqqında bəhs olunmuşdur. Həmin tədqiqatlarda bəhs etdiyimiz problem ayrıca tədqiqat sahəsi kimi seçilib öyrənilməmişdir.

Azərbaycan xalqının folkloru, adət-ənənələri əsasında kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsi pedaqogika elmi qarşısında ciddi problem kimi durur. Problemin nəzəri əsaslarını müəyyənləşdirmək, təcrübi fəaliyyət üçün imkan və yolları aydınlaşdırmaq səyləri ilk dəfə bizim tərəfimizdən olmuşdur. Bir cəhəti də qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının bir çox məktəblərində şagirdlərin etnopedaqoji materiallar vasitəsi ilə əxlaq tərbiyəsinin formalaşdırılması ilə bağlı müsbət təcrübə toplanmışdır. Lakin bu istiqamətdə görülən işlər, təbii ki, qarşıya qoyulan vəzifələri tam şəkildə ödəyə bilməz. Bunlar bəzən sistemsiz şəkildə aparıldığından tərbiyə işində açıq-aydın görünən qüsurlarla müşayət olunur. Beləliklə, ibtidai siniflərdə şagirdlərin əxlaq tərbiyəsinin formalaşdırılmasında etnopedaqoji materiallardan istifadə imkanlarının geniş, hərtərəfli və sistemli şəkildə araşdırılmasına həsr olunmuş tədqiqat, ilk növbədə, mövzunun aktuallığı ilə səciyyələnir.

**Tədqiqatın obyekti** ümumtəhsil məktəbində kiçik məktəbyaşlı şagirdlərin əxlaq tərbiyəsidir.

**Tədqiqatın predmeti** ibtidai sinif şagirdlərinin əxlaq tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanlarının araşdırılmasıdır.

**Tədqiqatın məqsədi** ibtidai sinif şagirdlərinin əxlaqının formalaşdırılmasında etnopedaqoji materiallardan istifadə imkanlarını üzə çıxarmaq, onlardan istifadə etməyin formalarını, yol və vasitələrini müəyyənləşdirmək, ibtidai sinif müəllimlərinə konkret elmi-pedaqoji tövsiyələr verməkdən ibarətdir. Tədqiqatın məqsədindən irəli gələn **vəzifələr** aşağıdakılardan ibarətdir:

1. Pedaqoji tədqiqatlarda etnopedaqoji vasitələrlə ibtidai sinif şagirdlərinin əxlaq tərbiyəsinin formalaşdırılması probleminin işlənmə səviyyəsini öyrənmək.

2. Azərbaycan xalq pedaqogikasında əxlaq tərbiyəsinin məzmunu, metod və vasitələri haqqında bilikləri problem baxımından öyrənib ümumiləşdirmək, onların elmi pedaqogikadakı əxlaq tərbiyəsi nəzəriyyəsi ilə məzmun, məqsəd eyniliyini və qarşılıqlı əlaqə və təsirləri müəyyən etmək.

3. “Etnopedaqoji materiallarla kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsi” anlayışının məzmununu konkretləşdirmək və dəqiqləşdirmək.

4. Etnopedaqoji materiallarla kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsinin struktur məzmun modelini işləyib hazırlamaq və onun ibtidai siniflərdəki fənlərin tədrisi prosesində reallaşdırılması yollarını müəyyənləşdirmək.

5. Problem üzrə dərsdənkənar tədbirlərdə etnopedaqoji materiallardan istifadənin ibtidai sinif şagirdlərinin əxlaq tərbiyəsinə təsirini aşkara çıxarmaq, bu sahə üzrə əldə edilmiş nailiyyətləri, müsbət təcrübəni ümumiləşdirmək.

6. Etnopedaqoji materiallardan istifadənin kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsinin səmərəliliyinin yüksəldilməsinə təsirini eksperimental şəkildə yoxlamaq.

7. Etnopedaqoji materiallar vasitəsilə kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsinin səmərəliliyinin yüksəldilməsi üzrə nəzəri-metodik təkliflər və tövsiyələr vermək.

**Tədqiqatın fərziyyəsi.** Kiçikyaşlı məktəblilərin əxlaqi tərbiyəsi o zaman daha yüksək səmərə verər ki:

- xalq pedaqogikası materialları əsasında kiçik məktəbyaşlı şagirdlərin əxlaq tərbiyəsi işi məqsədyönlü, sistemli və ardıcıl aparılsın;
- məktəbəqədər və ibtidai təhsil arasında varislik prinsipinin gözlənilməsinə etnopedaqoji yanaşma reallaşdırılsın;
- etnopedaqoji materiallardan istifadə etməklə uşaqların öz xalqının milli mədəniyyətinə qoşulmasınaköməklik göstərilsin;
- kiçikyaşlı məktəblilərin etnopedaqoji vasitələrlə əxlaq tərbiyəsinin formalaşdırılması üzrə ibtidai sinif müəllimlərinin hazırlığı təmin olunsun.

**Tədqiqatın metodoloji əsasında** Azərbaycan və dünya klassik pedaqoqlarının xalq tərbiyəsi və milli-mənəvi dəyərlər haqqında fikirlərinə, xalq pedaqogikasının nəzəri əsaslarına həsr olunmuş tədqiqatlara, şagirdlərin əxlaq tərbiyəsi üzrə görkəmli nəzəriyyəçi pedaqoqların fikirlərinə dialektik yanaşma durur.

Bundan başqa tədqiqat zamanı idrak nəzəriyyəsi, ümumbəşəri və milli dəyərlər, problemlə bilavasitə və ya dolayısı ilə bağlı pedaqoji, psixoloji, metodiki ideya-nəzəri mənbələr də əsas götürülmüşdür.

Tədqiqatda qoyulan məqsədin, vəzifə və fərziyyələrin həlli yolları aşağıdakı **tədqiqat metodları** vasitəsi ilə mümkün olmuşdur: Pedaqoji, psixoloji və metodik ədəbiyyatların nəzəri təhlili; pedaqoji müşahidə; qabaqcıl iş təcrübəsinin öyrənilməsi, pedaqoji eksperiment; müsahibə və anket sorğusu.

**Tədqiqatın elmi yeniliyi** onunla müəyyən olunur ki, ilk dəfə olaraq a) etnopedaqoji materiallar vasitəsilə kiçikyaşlı məktəblilərin əxlaq tərbi-

yəsinin formalaşdırılmasının struktur-məzmun xüsusiyyətləri aydınlaşdırılıb, təşkilati-metodik, məzmun, prosessual, nəticə-qiymətləndirmə komponentləri dəqiqləşdirilib. b) kiçikyaşlı məktəblilərin əxlaqi tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanlarının kompleks pedaqoji şərtləri eksperimental yoxlanılıb və üzə çıxarılıb. c) şagirdlərin əxlaq tərbiyəsində xalq pedaqogikasının imkanları pedaqoji və mədəni fenomen kimi dəyərləndirilib, təsdiqlənib ki, etnopedaqoji materiallar uşaq şəxsiyyətinin sosiallaşması və sosial-əxlaqi tərbiyəsinin çox mühüm vasitəsidir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**.

- Dissertasiyada "Kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində etnopedaqoji materiallardan istifadə imkanları" anlayışının məzmun xüsusiyyətləri dəqiqləşdirilir ki, bu da əxlaq tərbiyəsi nəzəriyyəsini zənginləşdirir.
- Kiçikyaşlı məktəblilərin etnopedaqoji sərvətlərlə əxlaq tərbiyəsinin məzmun istiqamətinin nəzəri əsaslandırılması verilir.
- Dissertasiyada əks olunmuş ideyalar, fikirlər ibtidai sinifdə tərbiyə nəzəriyyəsini zənginləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti** onunla müəyyən olunur ki, etnopedaqoji materiallarla kiçikyaşlı məktəblilərin əxlaqi tərbiyəsinin səmərəliliyini yüksəltmək üçün metodik tövsiyələr işlənib hazırlanmışdır ki, bu da tədris prosesində istifadə edilə bilər. Digər tərəfdən, dissertasiyanın əsas müddəaları və nəticələrindən kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsinin təşkili üzrə təhsil müəssisələrinin təlim-tərbiyə fəaliyyətində istifadə olunması məqsədəmüvafiqdir. Həmçinin tədqiqat materialından ibtidai sinif müəllimlərinin ixtisasartırma kurslarında və bu ixtisas müəllimləri üçün təşkil edilmiş xüsusi kurslarda istifadə etmək gərəklidir.

Tədqiqatın inandırıcılığı onun nəzəri və metodoloji əsaslandırılmasının müəyyənliyi, bitkinliyindədir. Seçilmiş metodlar tədqiqatda qoyulmuş vəzifələrə uyğundur. Şagirdlərin əxlaq tərbiyəsi üzrə təcrübi-eksperimental işlər Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələri və dissertantın təhsil sistemində şəxsi iş təcrübəsi ilə təsdiqlənmişdir.

Müdafiəyə aşağıdakı **müddəalar** çıxarılır:

1. İbtidai siniflərdə etnopedaqoji materiallardan istifadə şagirdlərin mədəni, əxlaqi və estetik dəyərləri mənimsəməsi prosesinə təsir edir. Öz vətəninə, xalqına, doğma dilinə, adət-ənənələrinə emosional münasibət formalaşdırılması, ümumbəşəri dəyərlərə yiyələnməsi şagirdlərin yüksək vətəndaşlıq və əxlaqi keyfiyyətlərinin təminatçısıdır.

2. İbtidai siniflərdə şagirdlərin əxlaq tərbiyəsinin düzgün təşkili təlim-tərbiyə prosesində etnopedaqoji materiallardan səmərəli istifadədən əhəmiyyətli dərəcədə asılıdır.

3. Kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsinin təlim prosesində formalaşdırılmasının səmərəlilik səviyyəsi təhsilin məzmununa, tədris materialına etnopedaqoji xarakter verməklə sıx şəkildə bağlıdır.

4. Tədris fənlərinin strukturunu, dərslik və proqramların məzmununu etnopedaqoji materiallarla daha da zənginləşdirməyin müasir cəmiyyətimizdə əxlaq tərbiyəsi ilə bağlı tələblərə uyğunluğu və bu istiqamətdə aparılan işlər faydalı cəmiyyət üzvü, əsl vətəndaş yetişdirilməsinə təsiri.

**Tədqiqatın aprobasiyası**. Tədqiqatın əsas ideya və nəticələri haqda Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında məruzə edilmiş, müzakirələr keçirilmişdir. Problemlə bağlı ölkə daxilində və xaricdə 12 məqalə dərc edilmişdir. Müəllif tədqiqatın nəticələrinin tətbiqi məqsədilə Naxçıvan Muxtar Respublikasının (Naxçıvan şəhər 1, 2, 4, 5, 8, 12, 14 saylı məktəblər, Heydər Əliyev məktəbi, Babək, Şərur şəhər məktəbləri və bu təhsil şöbəsinin nəzdində fəaliyyət göstərən bir neçə kənd məktəbi) bir sıra ümumtəhsil məktəblərində fəaliyyət göstərən ibtidai sinif müəllimlərinin metodbirləşmələrində mühazirələr oxumuş, müəllimləri problemlə bağlı metodik tövsiyələrlə tanış etmişdir.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, 6 yarımfəsli əhatə edən iki fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyatların siyahısından ibarətdir.

## Tədqiqatın əsas məzmunu.

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, işçi fərziyyəsi diqqətə çəkilmiş, işin metadoloji əsasları, tədqiqat metodları qeyd edilmiş, elmi və təcrübi əhəmiyyəti üzə çıxarılmaqla dissertasiyada irəli sürülən müddəalar göstərilmişdir.

Üç yarımfəsildən ibarət olan I fəsil **"Etnopedaqoji materiallar və tərbiyə işində onlardan istifadənin əhəmiyyəti"** adlanır. **"Etnopedaqoji materialların mahiyyəti və tədqiqi tarixi"** başlıqlı I yarımfəsildə göstərilir ki, yetişən nəsildə xalqın mədəniyyətinə təmiz, səmimi və həqiqi maraq oyatmaq lazımdır. Buna isə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək vasitələrdən biri yetişən nəslin tərbiyəsi haqqında emprik materialların, məlumat və faktların məcmusunu əks etdirən etnopedaqoji materiallardır. Xalq pedaqogikasının əsasında sosial-etik normalar, ənənələr, xalq adətləri, mənəvi-ruhi mədəniyyət durur. Xalqın pedaqoji-

tərbiyəvi müdrikliyində tərbiyə formalarının kifayət qədər dəqiq diferensiasiyasi müşahidə edilir. Məsələn, atalar sözü və məsəllər sosial-etik tərbiyə üçün, tapmacalar ağıl tərbiyəsi üçün, nəğmələr estetik və vətənpərvərlik tərbiyəsi üçün, nağıllar bu və ya digər tərbiyə keyfiyyəti formalaşdırmaq üçün daha yaxşı imkanlara malikdir.

İctimai-pedaqoji fikrin klassikləri xalqın tərbiyə və təlim haqqında fikirlərindən dönə-dönə söz açmış, bu hikmət dolu xəzinədən istifadə etməyin zəruruliyini qeyd etmişlər. Onlar hesab edirdilər ki, xalq pedaqogikası tərbiyə haqqında elmi zənginləşdirir, onun istinadgahını və əsasını təşkil edir. Böyük çex pedaqoqu Y.A.Komenskinin ilk əsəri "Çex dilinin xəzinəsi" adlanırdı. Əsərdə möcüzəli xalq pedaqogikasından, çex xalqının müdrikliyindən geniş şəkildə bəhs edilir.

K.D.Uşinski elmi pedaqogikanın yaradılmasında xalq pedaqogikasının, xalqın tərbiyə sisteminin çox mühüm faktor olduğunu qeyd edirdi. Böyük pedaqoq tərbiyəni ümumxalq yaradıcılığının nəticəsi kimi qiymətləndirir, rus pedaqogikasında xəlqilik yolu tutmağın prinsipial əsaslarını işləyib hazırlamağa çalışırdı.

Azərbaycan xalq pedaqogikası qədim və zəngin ənənələrə malikdir. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində dərslik və tədris vəsaitləri, ədəbi-bədii nümunələrdə xalq pedaqogikası materiallarından istifadə geniş vüsət aldı. Qabaqcıl ziyalılar dilin, mədəniyyətin, yaxşı adət-ənənələrin yaşaması uğrunda mübarizə aparmaqla yanaşı, xalqın tərbiyə sahəsindəki zəngin təcrübəsinin öyrənilməsinə də xüsusi diqqət yetirirdilər. Görkəmli maarifçi Abbasqulu ağa Bakıxanovdan tutmuş XX əsrin 20-ci illərinə qədər bütün ziyalı zümrəsi pedaqoji, dil və üslub yeniliyi ilə seçilən tədris vəsaitləri, ədəbi-bədii mətnlər hazırlayarkən xalq tərbiyəsinin vasitələrindən geniş şəkildə istifadə etmişlər.

Bəhs olunan dövrün bütün tanınmış pedaqoq-ziyalıları öz yaradıcılıq fəaliyyətlərində xalq pedaqogikasına, xalqın tərbiyə ənənələrinə və təcrübəsinə yüksək qiymət vermiş, əməli işlərində ondan bacarıqla faydalanmağa çalışmışlar. M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani, A.O.Çernyayevski, F.Köçərli, M.T.Sidqi, R.Əfəndiyev, S.M.Qənizadə, M.Mahmudbəyov, N.Nərimanov, Ü.Hacıbəyov, A.Şaiq, M.H.Rüşdiyyə və onlarca başqaları xalqın etnopedaqoji istiqamətdə formalaşdırdığı ideallara, unikal tərbiyə təcrübəsinə bələd olmuş, pedaqoji görüşlərinin zənginləşməsində bu mənbədən geniş şəkildə istifadə etmişlər.

Sovetlər dövründə (XX əsrin əvvəllərindən həmin əsrin 60-cı illərinə qədərki dövrü) kommunist ideologiyasının sərt prinsipləri daxilində olsa da, xalqın tərbiyə sahəsindəki zəngin təcrübəsinin öyrənilməsi

məqsədyönlü xarakter almış, xalq pedaqogikasının mütərəqqi ideyalarından təlim-tərbiyə müəssisələrində istifadə üçün ilkin səylər göstərilmişdir. Bu dövrdə xalq ədəbiyyatının bütün növ və janrlarına dair tədqiqlər genişləndirilmişdir. İbtidai təhsildə etnopedaqoji materiallardan istifadə ana dilində təhsil alma prinsiplərinə xidmət etməklə yanaşı, mənəvi cəhətdən formalaşma mənbəyi kimi də əhəmiyyətli idi. Bununla belə bu dövrdə də uzun müddət ayrıca elm sahəsi kimi etnopedaqoji istiqamətdə tədqiqatlar aparılmamışdır.

Etnopedaqogika sahəsində ilk ciddi tədqiqatlar ötən əsrin 50-ci illərində meydana gəldi. G.N.Volkov, Ə.Ş.Həşimov, A.F.Xintibidze, Y.İ.Xanbikov, A.E.İzmayılov kimi tədqiqatçıların araşdırmaları xalq pedaqogikasının bir elm sahəsi kimi müəyyənləşməsinə imkan yaratdı. Adları çəkilən bu alimlər keçmiş SSRİ məkanında etnopedaqogika elminin yayılmasında əsl fədakarlıq nümayiş etdirmişlər.

Azərbaycanda etnopedaqoji tədqiqatların əsası görkəmli alim Əliheydər Həşimov tərəfindən qoyulmuşdur. Xalqımızın əsrlər boyu yaratdığı zəngin pedaqoji mədəniyyət, etnik düşüncəsindən süzülüb gələn tərbiyə etiketləri ilk dəfə olaraq Əliheydər Həşimovun tədqiqatlarında öyrənilmişdir. O, öz elmi məktəbini yaratmış görkəmli elm xadimidir. Əliheydər Həşimov nəinki respublikamızda, həmçinin keçmiş SSRİ respublikalarında da xalq pedaqogikası üzrə tədqiqatların inkişafına, tədqiqatçı-alimlər nəslinin yetişməsinə tövhələr vermişdir.

Şəxsiyyətin hərtərəfli inkişafının yeniləşdirilməsi və təkmilləşdirilməsi müasir tərbiyə konsepsiyasının yaradılması ehtiyacını doğurur ki, bu işin çox mühüm nəzəri və praktik aspektləri xalq pedaqogikası ilə bağlıdır. Hər hansı bir tərbiyə nəzəriyyəsinin əsasında həmişə xalq müdrikliyinin nüvəsini görmək çətin deyil. Müasir şəraitdə etnopedaqoji ənənələrin inkişafı, təkmilləşdirilməsi və zənginləşdirilməsi nəinki davam edir, həmçinin xalq pedaqogikası həyatda, fəaliyyətdə, məişətdə çoxlu yeni təzahür formaları qazanır.

Hazırda ibtidai məktəbdə istifadə olunan tədris vəsaitləri böyük bir qisim xalq pedaqogikası nümunələrini əks etdirir.

I fəslin II yarımfəsli **“Azərbaycan xalq pedaqogikasında əxlaq tərbiyəsinin məzmunu və metodları”** adlanır. Göstərilir ki, bir elm sahəsi olaraq etnopedaqogika özündə tərbiyə haqqında xalqın yaradıcılıq təcrübəsini əks etdirir. Etnopedaqogikanın imkanlarından istifadə edərək yetişən nəslin tərbiyəvilik səviyyəsini daima zənginləşdirmək olar. Ona görə də etnopedaqoji materiallarla tərbiyə işinə xüsusi diqqət yetirmək pedaqoji prosesdə aparıcı yerə və mövqeyə malik olmalıdır.

Xalq yaradıcılığında müxtəlif həyati nöqteyi-nəzər və mövqelər doğru-düzgün qiymətləndirilir, çatışmazlıqlar, nöqsan və eyiblər məsxərəyə qoyulur, rişxənd edilir, insanların yaxşı, müsbət keyfiyyətləri təriflənir, mədh olunur. Azərbaycan xalq yaradıcılığı nümunələrində ağlın qüdrətinə, əməyin insan həyatı üçün əhəmiyyətli olduğuna, əxlaqın insanın saflaşdırılmasındakı roluna, insan əllərinin xariqələr yaratdığına, insanın öz nəcib, xeyirxah əməllərinə görə ucalacağına xüsusi yer verilir, folklorun uşaqların idrakı və əxlaqi inkişaf mənbəyi olduğu təsdiq olunur.

Xalq yaradıcılığı, onun xüsusi bir sahəsi olan uşaq folkloru ulularımızın yetişən nəslin əxlaqi, əqli, əmək, estetik və fiziki tərbiyəsi ilə bağlı ehtiyac və qayğılardan yaranmışdır,- desək, səhv etmərik. Folklor bütövlükdə insanın mənən yüksəlməsinə və cismən sağlam böyüməsinə istiqamətlənmişdir. Xalqın yaradıcı qüvvəsini əks etdirən bu nümunələr heyrətamiz tərbiyə vasitələri, etnopedaqoji materiallardır. Hələ laylalarda ana-övlad məhəbbəti psixologiyası öz təsirli və parlaq ifadəsini tapmışdır. Ana beşik başında müəyyən musiqi ahəngi ilə oxuduğu laylalarla övladını sanki “tərbiyə edir”. Əzizləmələr, oxşamalarla bu işi davam etdirir. Sonrakı yaş dövrlərində oyunlar da balacaların həm cismən, həm də mənən inkişafına kömək edən etnopedaqoji vasitələrdəndir. “Bənövşə bəndə düşə” və digər uşaq oyunları fiziki keyfiyyətlərin yüksəldilməsinə xidmət etməklə yanaşı, müəyyən normalar daxilində hərəkət etmək, qadağalara tabe olmaq baxımından tərbiyəvilik mahiyyətinə malikdir. Oyunlar uşaqlarda dostluq, yoldaşlıq hissləri tərbiyə edir, daha da möhkəmləndirir, onları dəyanətli, möhkəm və mübariz olmağa sövq edir.

Uşaq folklorunun çoxtərəfli və daha geniş yayılmış növü nağıllardır. “Ağ atlı oğlan”, “Oxqayın nağılı”, “Uçan xalça”, “Qızıl şamdan”, “Yetim İbrahimin nağılı”, “Dərzi şagirdi Əhməd”, “Daşdəmirin nağılı”, “Ovçu Pirim”, “Göyçək Fatma” və s. bu kimi nağıllar mövzu, ideya xüsusiyyətlərinə, tərbiyəvi mahiyyətinə görə bütün yaş dövrləri üçün, o cümlədən kiçikyaşlı məktəblilər üçün də anlaşıqlıdır. Nağıllar didaktik - əxlaqi mövzulara həsr olunduğundan digər folklor nümunələrindən əsaslı surətdə fərqlənir. Folklorun bu janrı Vətənə məhəbbət, doğma el-obaya bağlılıq, öz xalqına dərin və sonsuz sevgi, şərə, pisliyə, qorxaqlığa nifrət hissləri ilə zəngindir. Düzlük, doğruçuluq, sədaqət, əməksevərlik, insana məhəbbət, yaşlılara, valideynlərinə hörmət və ehtiram, yoldaşına səmimi münasibət kimi yüksək əxlaqi keyfiyyətlər nağıllarda izlənilən əsas məqsəddir. Bu nağıllar uşaq ruhunu saflaşdırır, mənəvi aləmini zənginləşdirir, onu iti zəkalı, əxlaqlı olmağa sövq edir.

Azərbaycan uşaq nağılları çox zəngin məzmuna, bədii dəyərə, əxlaqi-didaktik mahiyyətə malikdir. "Şəngülüm, Şüngülüm, Məngülüm", "Cırtdan", "Məlikməmmədin nağılı", "Tülkünün kələyi", "Tısbağa xanım və Siçan solu bəy", "Qoca canavar", "Tülkü baba və Hacıleylək" kimi uşaq nağılları insana humanist münasibətin nümunəsi, şərə, eybəcərliyə, insanlığa qarşı çıxanlara nifrət hissləri ilə zəngindir. Şərin, fənalığın üzərində xeyrin, yaxşının qələbəsi bu nağılları uşaq ruhuna yaxınlaşdırır. Uşaq nağılları xalqımızın keçdiyi həyat yolunu, tarixi təcrübəsini, onun mənəvi aləmini, ətraf aləm, cəmiyyət haqqında düşüncələrini ifadə edir. "Cırtdan" kimi nağıllarda kiçikyaşlı uşaqlar ağıllı, tədbirli, bacarıqlı olduğu üçün qorxunc qüvvələrə-divlərə qalib gəlirsə, deməli, hər bir uşaq həyatda rastlaşdıqları çətinliklərdən bacarıqla baş çıxara bilər, bütün sınaqlardan qalib çıxar.

Folklorun geniş yayılmış janrlarından biri kimi atalar sözlərindən ta qədimdən pedaqoji vasitə kimi istifadə olunmuşdur. Atalar sözləri və məsəllər xalqın əsrlər boyu öz təcrübəsinə əsaslanaraq gəldiyi həyati-mənəvi nəticələr, fikirlər, hökmlərdir. Bu ibrətli nəticələr, hikmətli sözlər insanları xeyirxahlığa, saflığa, mərdliyə, sədaqətə, düzlüyə, doğruluğa, əmin-amanlığa, zəhmətsevərliyə, bir sözlə, mənəvi zənginliyə və müdrikliyə çağırır. Xalq min illərin ailə tərbiyəsi təcrübəsində atalar sözləri və məsəllərin tərbiyəvi-pedaqoji mahiyyətindən bacarıqla istifadə etmişdir. Əxlaqilik və əxlaq tərbiyəsi, əməksevərlik və əmək tərbiyəsi atalar sözləri və məsəllər üçün olduqca səciyyəvi hal, xüsusiyyətdir.

Uşaq folklorunun növlərindən biri kimi tapmacalar folklorun kiçik formalarından biri olub "ağılın gimnastikası" (Əliheydər Həşimov) rolunu oynayır. Aydın, konkret, gözəl bədii obraza malik tapmacalar ətraf gerçəkliyə yeni baxışların yaranmasına kömək edir, onu təhlil etmək qabiliyyət və bacarıqlarının yaranmasına şərait yaradır, beləliklə də, məntiqi düşünməyə geniş imkanlar açılır. Belə poetik vasitələrlə uşaqların tərbiyəsi və təlimi olduqca faydalıdır.

Bütövlükdə ictimai tərbiyə kimi xalq tərbiyəsi empirik biliklərin məcmusu və uzun əsrlərin toplanmış tərbiyə təcrübəsi kimi uşaq şəxsiyyətinin formalaşmasında əhəmiyyətli yerə və mövqeyə malikdir. Xalq oyunları, atalar sözləri və məsəllər, nağıllar, yanıltmaclar və digər folklor nümunələri uşaqların ruhuna təsir etməklə onların əxlaqının, davranış və hərəkətlərinin formalaşdırılması imkanları ilə zəngindir. Azərbaycan uşaq fokloru milli mənəvi dəyərləri əks etdirən çox mühüm vasitələr kimi müasir şəraitdə yetişən nəslin tərbiyəsi işində xüsusi əhəmiyyətə malikdir.

I fəslin **"İbtidai siniflərdə tərbiyə işində etnopedaqoji materiallardan istifadənin mövcud vəziyyəti"** adlı sonuncu yarımfəslində müasir məktəb təcrübəsində kiçikyaşlı məktəblilərin etnopedaqoji materiallar vasitəsi ilə tərbiyəsi üzrə işin vəziyyətini müəyyənləşdirməyə, bu sahədə elmi-pedaqoji istiqaməti üzə çıxarmağa, tədris proqramlarının və tədris vəsaitlərinin problem baxımdan imkanlarını aşkar etməyə diqqət yetirilmişdir.

Ümumən, ibtidai siniflərin dərslikləri milli dəyərlər haqqında mətnlər, xalq yaradıcılığı nümunələri ilə zəngindir. Bu dərsliklərdə əks olunan folklorun müxtəlif janrlarına aid nümunələr şagirdlərin mənəvi cəhətdən yetkinləşməsinə, onların görüş dairəsinin genişlənməsinə, təxəyyül və hissin, təfəkkür və nitqin inkişaf etməsinə əsaslı təsir göstərməkdədir. Düşünülmüş və mənalı etnopedaqoji nümunələr uşaq ruhunu oxşayır, əqlini cilalayır, əxlaqını saflaşdırır, zövqünü təkmilləşdirir. Uşaqlar xeyirlə şər, yaxşılıqla pislik, ədalətlə haqsızlıq arasında gedən əbədi mübarizə haqqında folklor nümunələri vasitəsilə daha asan, aydın, başa düşülən şəkildə məlumatlar alırlar ki, bu da ibtidai məktəbin fənn proqramları və tədris vəsaitləri üçün müsbət məziyyət sayıla bilər.

Son illər ibtidai sinifdə tədris olunan fənlərin proqram və dərslikləri etnopedaqoji materiallardan istifadə imkanlarının genişliyi və zənginliyi cəhətdən müəyyən irəliləyişə nail olunduğunu göstərir. Dərsliklər hazırlanarkən müəyyən uğurlar qazanılmış, yaxşı nəticələr əldə edilmişdir. Lakin bununla belə, bəzi dərslik və vəsaitlərdə müəyyən çatışmazlıqlar, nöqsanlar olduğunu, həmçinin günümüzün reallıqlarını, tələb və ehtiyaclarını ödəməyən mətnlərin verildiyini də müşahidə etmişik.

Məktəbdə çox mühüm vəzifələrdən biri təlim-tərbiyə prosesi ilə bağlı zəruri etnopedaqoji materialların bütün pedaqoji kollektiv tərəfindən eyni məsuliyyət və diqqətlə öyrənilməsi, bu istiqamətdə müəllimlərə köməklik göstərilməsi, təcrübəsiz, gənc müəllimlərə etnopedaqoji bilik, təhsil verilməsi üzrə müxtəlif yolların, metodikanın, tövsiyələrin hazırlanmasıdır. Təəssüf doğuran cəhətdir ki, ümumtəhsil məktəblərində etnopedaqoji materiallar üzrə metodik işlərin təşkilinə lazımi əhəmiyyət verilmir. Halbuki bu istiqamətdə aparılan işlərin səmərəli olması uşaqların tərbiyəsi, şəxsiyyət kimi yetişməsi işində çox əhəmiyyətli vasitədir.

Etnopedaqoji materiallar vasitəsi ilə şagirdlərin əxlaqi simasını formalaşdırmaq kimi mühüm vəzifənin yerinə yetirilməsi məktəbi və müəllimi daima düşündürməlidir. Naxçıvan Muxtar Respublikasının şəhər və kənd ümumtəhsil məktəblərində bu istiqamətdə müəyyən işlər görülsə də, ümumi nəticəni kifayətləndirici hesab etmək olmaz. Tədqiqat zamanı

yoxlayıcı eksperimentin nəticələri göstərdi ki, ibtidai sinif müəllimlərinin təlim prosesində şagirdlərin əxlaqi keyfiyyətlərinin yüksəldilməsi vasitəsi kimi etnopedaqoji materialların imkanlarından istifadə sahəsində işləri tamamilə qənaətbəxş deyil. Bununla belə, problemə nikbin nəzərlərlə baxmağa da əsas vardır.

Dissertasiyanın II fəsli üç yarımfəsli əhatə etməklə **“Kiçik məktəbyaşlı şagirdlərin əxlaq tərbiyəsinin etnopedaqoji materiallar vasitəsilə formalaşdırılmasının imkan və yolları”** adlanır. Burada ümumtəhsil məktəbində kiçikyaşlı şagirdlərin əxlaq tərbiyəsinin formalaşdırılmasında etnopedaqoji materiallardan istifadə imkanlarının başlıca yolu kimi tədris prosesi və sinifdənkənar tədbirlərdən bəhs olunur, eksperimental tədqiqatın nəticələri dəyərləndirilir.

II fəslin I yarımfəsli **“Təlim prosesində etnopedaqoji materiallardan istifadə etməklə kiçik məktəbyaşlı şagirdlərdə əxlaqi keyfiyyətlərin formalaşdırılması”** adlanır. Göstərilir ki, ümumtəhsil məktəbində təlim prosesi şagirdlərin idraki qüvvələrini inkişaf etdirməklə yanaşı, onların əxlaqi-mənəvi keyfiyyətlərinin zənginləşdirilməsi qayğısına qalmağı da özünün başlıca funksiyasına daxil edir. Çünki ibtidai sinif şagirdlərinin əxlaqi tərbiyəsinin formalaşdırılmasında etnopedaqoji materiallardan istifadə imkanlarının başlıca yolu tədris prosesidir.

Nəsildən-nəslə ötürülən Azərbaycan etnopedaqoji sərvətləri qiymətli əxlaqi normaları özündə birləşdirməklə çox böyük tərbiyə imkanlarına malikdir. Bu etnopedaqoji materiallar xalqımızın həyat tərzinin mənəvi-etik əsaslarını özündə cəmləşdirir. Xalqımız yetişən nəslin tərbiyəsi sistemini öz milli xüsusiyyətlərinə uyğun qurmuş, min illər boyu aşağıdakı müsbət keyfiyyətləri qoruyub saxlamışdır:

-Kiçikyaşlı uşaqların böyüklərə hörmət və ehtiram göstərməsi, valideynlərinə, baba və nənələrinə xüsusi qayğılı münasibət nümayiş etdirilməsi;

-Zəiflərə və kimsəsizlərə, əlsiz-ayaqsızlara kömək və yardım göstərilməsi;

-Qonaqpərvərlik (təmənnasız olmaqla);

-Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşmasına dinin nəcib təsiri;

-Ənənəvi əxlaqi normaların möhkəmləndirilməsi üçün zəhmətsevərlik göstərilməsi, fiziki əməkdən istifadə edilməsi;

-Böyüklərin tənbehləri, məsləhət və tövsiyələrinə hörmətlə yanaşılması və s.

Şagirdlərin mənsub olduqları xalqın ədəbi-mədəni irsini mənimsəməsi, başa düşüb qiymətləndirməsi, milli psixologiya zəminində tərbiyə alması onların xalq işinə, Vətənə sədaqət ruhunda yetişməsinin həyata keçirilməsinə kömək edir. Ona görə də ibtidai sinif müəllimi folklor nümunələrini şagirdlərə təkcə əzbərlətmək və öyrətməklə kifayətlənməməlidir. Burada nəzərə alınması zəruri olan cəhət şagirdlərdə el ədəbiyyatına maraq oyatmaq, etnik düşüncə və psixologiyanın yaxşı cəhətləri ilə onları tərbiyələndirməkdir. İbtidai siniflərin dərsliklərində şifahi xalq ədəbiyyatının qədim janrlarına o cümlədən sayaçı sözlərinə, əmək nəğmələrinə, mərasim nəğmələrinə, laylalara, oxşamalara, bayatılara, atalar sözləri və məsəllərə, rəvayətlərə, əfsanələrə, lətifələrə, dastanlardan parçalara, nağıllara və tapmacalara geniş yer verilmişdir. Müəllimin vəzifəsi isə ondan ibarətdir ki, şagirdlərin ailə mühitini, dünyagörüşünü nəzərə alaraq mövzunun bu aspektlərlə səsləşməsinə səy göstərsin. Şagirdləri yerli əsatirlər, rəvayətlər, nağıllar, əfsanələr, bayatılar, atalar sözləri, məsəllər və digər xalq yaradıcılığı nümunələri ilə tərbiyə etmək faydalıdır və bu cəhətə diqqət yetirmək lazımdır.

Novruz adətlərinin dərslik və dərs vəsaitlərində yer alması xüsusi əhəmiyyətə malikdir. Qabaqcıl müəllimlər şagirdlərin Novruz bayramı haqqında bilik və təsəvvürlərini genişləndirmək, bayramda icra edilən adətləri onların yaddaşında möhkəmləndirmək məqsədilə hər bir uşağa "Folklor dəftəri" hazırlamağı tapşırır. "Dəftər"də uşaqlar Novruzla bağlı müşahidə etdikləri adətləri, xalq deyimlərini, alqış və xeyir-duaları yaşlı nəsildən – ağbirçək nənələrdən, ağsaqqal babalardan toplayıb "Novruz boxçası" hazırlayırlar. Sonra hər bir uşağın topladığı "Novruz boxçası" yoxlanılır, müzakirə edilərək qaliblər mükafatlandırılır. Bu zaman müəllimin tədris üsulunu maraqlı edən cəhət şagirdlərin ahıllardan, qocalardan topladıqları "Novruz boxçası"nın mətnləri ilə əlavə oxu vəsaitlərində verilmiş "Səməni", "Ağırlığım-uğurluğum", "Xonçalı Novruz gəlir" və s. adda mövsüm-mərasim nəğmələri ilə müqayisələr aparıb təhlil-tərkib etməsidir. Şagirdlər tərəfindən toplanmış nümunələrin dərslikdəki örnəklərlə müqayisə edilməsi istər-istəməz öz müsbət təsirini göstərir.

"Kitabi-Dədə Qorqud" dastanları xalqımızın mənəviyyatını və pedaqoji fikrini əks etdirən ilk ən qədim etnopedaqoji nümunədir. Diqqətəlayiq cəhətdir ki, bu əsər müxtəlif yaş qruplarında, sinifdən-sinfə daha da dərinləşdirilərək öyrədilir.

Folklorun digər dərin həyati mənaya malik janrları da əxlaq, mədəni davranış və məişət qaydaları haqqında xalqımızın təcrübəsinin müdrik nəticəsini əks etdirir. Folklor nümunələri vətənpərvərlik, insanpərvərlik,

əməksevərlik, doğruçuluq, həqiqətpərəstlik, ədəbli və kamil olmaq, təkəbbürlüyə, eybəcərlik hallarına, rəzilliyə qarşı barışmaz olmaq, izzət, şərəf, namus, qeyrət daşıyıcısına çevrilmək, ləyaqət və mənliyini qorumaq, sədaqətlilik, alicənablıq nümayiş etdirmək, dostluq və yoldaşlıqda möhkəm olmaq, müdriklik göstərmək, xeyirxah işlər görmək və s. tərbiyə keyfiyyətlərini formalaşdırmağa xidmət edən çox güclü vasitədir.

Dissertasiyada etnopedaqoji materiallarla şagirdlərinin əxlaq tərbiyəsi problemi ilə bağlı Naxçıvan Muxtar Respublikasının şəhər və kənd məktəblərinin qabaqcıl iş təcrübəsi şərh olunmuş, eksperimental yoxlanılaraq nəticələr dəyərləndirilmişdir.

II fəslin II yarımfəsli **"Dərsdənkənar tərbiyəvi tədbirlər zamanı etnopedaqoji materiallardan istifadənin ibtidai sinif şagirdlərinin əxlaq tərbiyəsinin formalaşdırılmasına təsiri"** adlanır. Bu yarımfəsildə etnopedaqoji materiallarla ibtidai sinif şagirdlərində əxlaqi keyfiyyətlərin formalaşdırılmasında dərsdənkənar işin formaları üzrə metodika, göstəriş və təkliflər əks olumuşdur. Qeyd edilmişdir ki, etnopedaqoji materiallar vasitəsi ilə ibtidai sinif şagirdlərində əxlaqi keyfiyyətlərin formalaşdırılmasında dərsdənkənar tədbir forması kimi aşağıdakılardan istifadə etmək faydalı olar:

- etnopedaqoji mövzularda söhbətlərin təşkili;
- xalq oyunları, mahnılar, rəqslər üzrə yarış – müsabiqələr;
- milli bayramlar, mərasimlər zamanı ədəbi-bədii kompozisiyaların təşkili və keçirilməsi;
- xalq pedaqogikası nümunələrinin toplanmasına şagirdlərin cəlb olunması (valideynləri, nənə və babalarından);
- tarixi yerlərə – muzey və abidələrə ekskursiya və yürüşlərin təşkil edilməsi;
- didaktik oyun – müsabiqələr;
- öyrənilmiş etnopedaqoji materialın "müzakirəsi"nin keçirilməsi;
- uşaq nağıllarının səhnələşdirilməsi və ifası;
- şifahi xalq ədəbiyyatı nümunələrinin (nağıllar, rəvayətlər, lətifələr, bayatılar və s.) dərsdənkənar oxusu;
- xalq musiqi alətlərində şagirdlərin müstəqil şəkildə ifa etməyi öyrənməsi;
- milli dəyərlərimizə, etnik düşüncə və psixologiyamıza aid ədəbi – bədii kitablardan nümunələr seçib ifadəli oxusunun təşkil edilməsi və s.

Ölkəmizdə müstəqillik dönəmindən başlayaraq Novruz bayramında icra edilən ayin və mərasimlər, nəcib ənənələr geniş təbliğ olunur. Ümumtəhsil məktəbində də xalqımızın bu gözəl adət-ənənələrinin

tanıdılmasına xüsusi əhəmiyyət verilir. Novruz bayramı dedikdə səməni yada düşür. Bayramlaşmaq, od üstündən hoppanmaq, "Baca-baca" kimi oyunun icrasında iştirak etmək, yumurta döyüşdürmək və s. adətlər uşaq ruhuna doğma olduğundan onlarda Novruz bayramına xüsusi maraq yaradır. Ona görə də pedaqoji kollektiv bu işə səfərbər olmalı, metodiki cəhətdən yüksək səviyyədə təşkili və keçirilməsinə səy göstərməlidir.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində xalqımız üçün çox əziz olan Novruz bayramına xüsusi səy və diqqətlə hazırlaşırlar. Qabaqcıl məktəblər və müəllimlər uşaqlarda Novruz adətləri haqqında geniş və hərtərəfli təsəvvür yaratmaq, onun ən qədim və zəngin milli-mənəvi dəyərlərimiz olması haqqında şagirdlərdə möhkəm inam və etiqad formalaşdırmaq işində müsbət təcrübə qazanmışlar. "Bayramlar bayramı", "Təmizlik və gözəllik bayramı", "Novruz baharın gəlişidir" sərgi və stendlərin təşkili və tərtib edilməsi, "Novruz gəlir elimə", "Baharın ilk günü Novruz" və s. adda ədəbi-bədii kompozisiyaların hazırlanıb keçirilməsi məktəblərimizdə artıq ənənə halını almışdır.

İbtidai sinif şagirdlərinin etnopedaqoji materiallarla tərbiyəsi işində söhbətlərin, yarış-müsabiqələrin, sinifdənkənar mütaliənin aparılması çox əhəmiyyətlidir. Məktəblərdə qrup halında keçirilən dərsdənkənar iş formalarından biri kimi "Atalar sözlərini tamamla", "Vətənlə bağlı bayatı söylə", "Dərslikdə olmayan sanamalar de", həmçinin xalq nağılları, rəvayətləri, lətifələri və digər folklor nümunələri üzrə şagirdlərin dərsdənkənar oxusu və s. daha geniş yayılmışdır. Bu dərsdənkənar işlər şagirdlərinin yaş və bilik səviyyəsinə uyğundur.

Dərsdənkənar vaxtlarda milli rəqslərimizi ibtidai sinif şagirdlərinə öyrədən, onu gəncliyin ruhuna hopdurmağa səy göstərən müəllimlərimiz az deyildir. Naxçıvan Muxtar Respublikasının bir cox müəllimləri kiçikyaşlı məktəblilərdən ibarət "Yallı" qrupu da yaratmağa müvəffəq olmuşdur. Onlar doğma Şərur ellərinin şən, oynaq və gözəl rəqslərini həvəslə oynamaqla estetik zövqlərini inkişaf etdirir, doğma diyarın, böyük Vətənin mərd, xeyirxah, yüksək əxlaqlı övladları kimi yetişirlər.

İbtidai siniflərdə xalq nağıllarının, rəvayətlərin, lətifələrin, dastanlardan parçaların, bayatıların, nəğmələrin və digər folklor nümunələrinin dərsdənkənar oxusuna xüsusi fikir verilməlidir. Bu cəhət, uşaqların asudə vaxtının düzgün təşkil edilməsinə, onların yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılıb inkişaf etdirilməsinə, şagirdlərin əxlaqi cəhətdən yeni-yeni keyfiyyətlər qazanmasına şərait yaradır. Beləliklə, ibtidai sinif müəlliminin təlim-tərbiyə işinin səviyyəsi, artım göstəricisi həm də onun dərsdənkənar vaxtlarda etnopedaqoji materiallardan güclü

təsir amili kimi istifadə etməsi ilə şərtlənir, mükəmməllik qazanır ki, ibtidai siniflər üzrə bu istiqamətdə aparılan işlərin müntəzəmliliyi, sistemliliyi və ardıcıllığına xüsusi fikir verilməlidir.

II fəslin III yarımfəsli isə **"Eksperimental tədqiqatın nəticələri"** adlanır. Burada tədqiqat zamanı ümumtəhsil məktəblərində aparılan təcrübi-eksperimental işlər təhlil edilərək yekun nəticələr üzə çıxarılmışdır.

Eksperimentin gedişi zamanı tədqiqat obyekti kimi seçilmiş 302 nəfərdən artıq şagird, 50 nəfərə yaxın müəllim və valideyn diqqətdə saxlanılmışdır. Müəyyənləşdirici eksperimentin gedişində aşağıdakı vəzifələrin həll edilməsinə səy göstərilmişdir: a) Şagirdlərin ilkin əxlaqi səviyyəsini müəyyənləşdirmək; b) Kiçikyaşlı məktəblilərin xalq yaradıcılığına, etnopedaqoji materiallara münasibətlərini, maraq və meyillərini üzə çıxarmaq; c) Şagirdlərin müasir cəmiyyətimiz üçün aktual, zəruri olan mənəvi keyfiyyətlərinin ilkin səviyyəsini müəyyənləşdirmək, onların etnopedaqoji materiallara münasibət və əlaqələrinin faiz nisbətini aydınlaşdırmaq.

Eksperimental tədqiqatın gedişində uşaqların etnopedaqoji vasitələrlə əxlaq tərbiyəsinin kompleks pedaqoji şərtlərini, daha dəqiq desək struktur – məzmun modelini reallaşdırmaq ideyasını qoymuş və həll etməyə çalışmışıq. Eksperimentin gedişində praktik xarakterli vəzifələrin yerinə yetirilməsinə, irəli sürülmüş fərziyyənin təsdiq olunmasına, işin səmərəliliyinə nail olmağa səy göstərilmişdir.

Eksperimentin ikinci mərhələsində aşağıdakı məsələlərin yerinə yetirilməsi istiqamətində iş aparılmışdır: a) şagirdlərin etnopedaqoji materiallardakı qəhrəmanları qiymətləndirmək bacarıqlarını dəqiqləşdirmək; b) onlarda folklor nümunələrindəki insan surətlərinin, həmçinin şəxsləndirilmiş təbii qüvvələrin davranış və hərəkətlərini izləmək, müxtəlif vəziyyətlər, motivlər üzərində düşünmək bacarıqlarının səviyyəsini müəyyənləşdirmək; c) kiçikyaşlı məktəblilərin emosiyaların dinamikasını nə dərəcədə görmək bacarıqlarına sahib olduqlarını aydınlaşdırmaq; d) əsərin, etnopedaqoji materialın ideyasını mənimsəyə bilmək bacarıqlarını üzə çıxarmaq.

Bu məsələlərin mənimsənilmə səviyyəsi üzrə cavabların bal hesabı ilə qiymətləndirmə meyarları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1. Qəhrəmanları qiymətləndirmək bacarıqları – 1 bal;
2. Qəhrəmanların davranışlarının səbəbinin başa düşülməsi (yaşayış tərzinə istinad etməklə) – 1 bal;
3. Qəhrəmanların davranışlarının səbəbinin əsərə, mətnə istinad etməklə dərk edilməsi – 2 bal;

4. Personajların davranışlarının izlənilməsini müəyyənləşdirmək bacarıqları–2 bal;

5. Münasibətlərin dəyişilməsini, növbələşməsini görmək bacarıqları – 1 bal;

6. Əsərdən, mətndən sitat gətirmək və ona əsaslanmaq bacarıqları – 2 bal;

7. Qəhrəmanların davranışlarını əxlaqi cəhətdən dərk etmək bacarıqları – 3 bal.

Təhlillər göstərdi ki, eksperimental sinif şagirdlərindən yalnız 16%-i personajların davranışları üzrə düzgün suallar qoya bilmişdir. Qəhrəmanların qiymətləndirilməsi, səbəb-nəticə əlaqələrinin qurulması sahəsində bacarıq nümayiş etdirən bu şagirdlərin uğurları məhz burada təlimin gedişini yüksək metodika ilə aparmaq səylərinin nəticəsində mümkün olmuşdur. Eksperimental sinfin yerdə qalan 84 %-i isə mətnlərdəki hadisələrlə dolu olan, faktların çoxluğu ilə səciyyələnən cəhətlər haqqında fikir söyləməyə cəhd göstərmişlər.

Tədqiqatın formalaşdırıcı mərhələsində məktəblilərin etnopedaqoji vasitələrlə əxlaq tərbiyəsinin kompleks pedaqoji şərtlərini, daha dəqiq desək struktur–məzmun modelini reallaşdırmaq ideyasını qoymuş və həll etməyə çalışmışıq. Eksperimentin gedişində praktik xarakterli vəzifələrin yerinə yetirilməsinə, irəli sürülmüş fərziyyənin təsdiqinə, bütövlükdə işin səmərəliliyinə nail olmağa səy göstərilmişdir.

Eksperimentin nəticəsi göstərir ki, nəzarət qrupunda problemlə bağlı durum, vəziyyət o qədər də yaxşı deyildir. Eksperimental qruplarda isə kiçikyaşlı məktəblilərin etnopedaqoji vasitələrlə əxlaqi keyfiyyətlərinin yüksəldilməsi səviyyəsi nisbətən müsbət olmuşdur. Tədqiqatın nəzəri və təcrübi–eksperimental işləri belə bir nəticəyə gəlməyə imkan verir ki, bütünlükdə dissertasiyada qoyulan problem həll edilmişdir. Şagirdlərin etnopedaqoji materiallarla tərbiyəsi işinin təkmilləşdirilməsi sahəsində müəyyənləşdirildiyi kimi, irəliləyiş və yeniləşmə baş vermişdir. Tədqiqatın son mərhələsi deməyə əsas verir ki, şagirdlər xalq yaradıcılığı, onun növləri ilə nəinki yaxından tanış olmuşdur, onlar həm də xalq pedaqogikası üzrə təcrübəni müəyyən səviyyədə mənimsəyə bilmişlər.

Tədqiqatın "**Nəticə və təkliflər**" hissəsində göstərilir ki, bu gün tərbiyə işinin çox vacib komponenti şəxsiyyətin əxlaqının saflaşdırılması, insan mənəviyyatının kamilləşdirilməsidir. İndiki halda şəxsiyyətin hərtərəfli inkişafı milli xüsusiyyətlər nəzərə alınaraq yeni məzmun keyfiyyətləri ilə zənginləşdirilməli, təkmilləşdirilməlidir. Bu işdə xalq pedaqogikasının rolu və əhəmiyyəti böyükdür. Etnopedaqogika həyatda,

fəaliyyətdə, məişətdə, əməkdə çoxlu yeni təzahür formaları qazanır. Bu gün yetişən nəslin tərbiyəsi işində etnopedaqoji materiallardan istifadənin konseptual modelinin hazırlanması zəruriyyətə çevrilmişdir.

Empirik biliklərin məcmusu, tarixən toplanmış təcrübə kimi etnopedaqoji materiallar uşaq ruhuna təsir etməklə onların əxlaqının, davranış və hərəkətlərinin formalaşdırılması imkanları ilə zəngindir. Xalq yaradıcılığı məktəblilərin kompleks pedaqoji şərtlər daxilində tərbiyəsi işinin struktur məzmununa daxildir. Məktəb təcrübəsində kiçikyaşlı məktəblilərin etnopedaqoji vasitələrlə əxlaq tərbiyəsinin struktur – məzmun modeli ümumtərbiyə işinin çox mühüm bir hissəsidir.

Etnopedaqoji materialların əhatəliyi və zənginliyi baxımından ibtidai siniflərin dərslikləri ilk və xüsusi bir mərhələ təşkil edir. Məktəblilərin etnopedaqoji vasitələrlə tərbiyəsi işinin sistemini aşağıdakı kimi müəyyənləşdirmək olar: a) Məktəb üzrə metodik işlərin təşkili; b) Dərs və dərsdənkənar işlər; c) Valideynlərlə aparılan işlər .

Milli dəyərlər, adət-ənənələr, milli psixologiyamız haqqında dərslik və dərs vəsaitlərinə daxil edilən nəzəri, qismən də empirik məlumatlar xalqımızın həyat və məişətindən xəbər verməklə, bu ənənələr ruhunda yaşamağı və tərbiyə olunmağı öyrədir. Xalqın mənəvi aləmi, psixologiyası, adət-ənənələri ilə bağlı folklor nümunələri igidlik, cəsurluq, düşmənə əyilməzlik, elinə-obasına bağlılıq hissi, şərəf və namusla yaşamaq duyğusu, ata-anaya, böyüklərə hörmət və qayğı göstərmək, kasıba, xəstəyə kömək etmək kimi nəcib keyfiyyətləri obrazlı şəkildə əks etdirir.

Xalq yaradıcılığı iki mühüm məqsədin–təlim məqsədlərinin və tərbiyə keyfiyyətlərinin zəngin “çalarlarını” ifadə edir. Folklor bütün növ və janrları ilə tərbiyə etiketləri, mənəviyyat dərsliyidir. Bu baxımdan tarixən yoxlanılmış təcrübədən tədris prosesində yüksək pedaqoji məharətlə istifadə etmək lazımdır.

Etnopedaqoji materiallarla şagirdlərin əxlaqi tərbiyəsi üzrə dərsdənkənar işlər də müxtəlif yol və imkanlara malikdir. Folklor nümunələrinə dair söhbətlər, müzakirələr, ədəbi-bədii kompozisiyalar, adət-ənənələr üzrə mərasimlərin icrası və s. bu kimi tədbirlər xalqımızın milli-mənəvi simasını əyani və daha qabarıq şəkildə əks etdirir. Dərsdənkənar tərbirlər şagirdlərin etnopedaqoji sərvətlər haqqında biliklərini praktik olaraq tətbiq edə bilmək imkanı yaratmaqla bərabər, onların əxlaqi keyfiyyətlərinin formalaşması, mənəvi simasının inkişaf imkanı da yaranır.

Dissertasiyanın məzmunu aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır.

1. Etnopedaqogika: məzmunu və inkişaf yolu //Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2011, № 4, s. 24-28

2. Xalq pedaqogikasında əxlaq tərbiyəsinin məzmunu və metodları // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, №1, s. 9-13

3. Azərbaycan uşaq nağılları və kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsi // Pedaqoji Universitetin Xəbərləri, 2012, №2, s. 328-331

4. Dərsdənkənar işlər zamanı ibtidai sinif şagirdlərinin əxlaqi tərbiyəsində etnopedaqoji materiallardan istifadə // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, №3, s. 36-39

5. А.Ш.Гашимов-Основатель Азербайджанской этнопедагогики // Полтавський Національний Педагогічний Університет імені В.Г.Короленка. Педагогічні науки. Полтава: 2012, №3 (56), с. 26-29.

6. Etnopedaqoji materiallardan istifadə etməklə kiçik yaşlılarda əxlaq tərbiyəsi //Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, №3, s.56-58.

7. Uşaq folklorunda əxlaq tərbiyəsi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2012, №4, s. 184-188

8. Təlim prosesində kiçikyaşlı məktəblilərin etnopedaqoji vasitələrlə əxlaq tərbiyəsi // Məktəbəqədər və ibtidai təhsil, 2013, №1, s. 87-90

9. Kiçikyaşlı məktəblilər və əxlaq tərbiyəsi /Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Qafqaz Universiteti, 2013, 26-27 aprel, s. 633-634

10. Atalar sözləri və məsəllərdə əxlaq tərbiyəsi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2013, №2 (54), s.169-171

11. İbtidai sinif şagirdlərinin əxlaq tərbiyəsinin formalaşmasında tərbiyəvi tədbirlərin və sinifdənxaric oxunun əhəmiyyəti // Pedaqoji Universitetin Xəbərləri, 2014, №4, s. 327-330

12. Milli adət-ənənələrimizdə əxlaqi keyfiyyətlər // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, №3, s. 21-23

**Safarova Gunay**

## Primary schoolchildren's using opportunities of ethnopedagogical materials in moral education

## SUMMARY

The dissertation consists of introduction, two chapters, conclusion and list of literature.

Topicality of theme has been substantiated and also object of research, items, aims and duties, the working hypothesis have been defined, methodological reasons have been discovered, scientific innovation, theoretical and experimental importance have been revealed and also has been informed about approbation of the work.

The first chapter is named "Ethnopedagogical materials and their using importance in education" and covers three subtitles. There are investigated the objective laws and specific features, in a word main point of public education of ethnopedagogy. There is also paid attention to its research history by specific and systematic form.

In this chapter the current situation of using from national pedagogy in the field of primary schoolchildren's education is commented by modern conditions.

In the second chapter is investigated "Opportunities and ways of forming small school-aged pupils' moral education by ethnopedagogical materials.In this part which consists of 3 subtitles deals the learning process and extracurricular measures as main way of using opportunities of schoolchildren from ethnopedagogical materials in primary school. The result of experimental research are revealed being analized.

In the final of research the results are generalized.

**Сафарова Гюнай**

# Возможности исползования этнопедагогического моралного воспитания учеников начальных классов

## РЕЗЮМЕ

Диссертация состоит из вступителной части, 2-х разделов, итога и перечня.

Во вступителной части мотивирована актуалность темы, определены объекты исследования,предметы, цель и обязонности, выявлены методические основы и методы исследования, научные новшества, раскрыта практическая и теоритическая важность, дана информация об апрбации работы.

Первая часть называется «Этнопедагогические материалы и важность, использования их в воспитательной работе» и состоит из 3-х подзаголовков.Здесь уделяется внимание объективной закономерности науки этнопедагогики, специфическим особенностям, одним словом –исследуется сущность народного воспитания, уделяется конкретное и системное внимание историческим исследованиям и на этой основе раскрывается содержание и методы морального воспитания детей в Азербайджанской народной педагогике.Так же комментируется использование в современных условиях народной педагогике в воспитании учеников начальных классов в нынешней ситуации, изучаются возможности образовательных программ и учебных пособий с проблемной точки зрения.

Во второй части исследуются «Возможности и пути формирования посредством этнопедагогических материалов учеников младшего школьного возраста». В этой части, состоящей из 3-х подзаголовков, говорится об учебном процессе и внеклассных мероприятиях, как о главном направлении в учеников в начальной школе и, анализируясь, расскрываются итоги экспериментального исследования.

В конце исследования обществляются и подводятся итоги.

Çapa imzalanmışdır: 3.02.2016
Formatı: 60×90, 16/1, həcmi: 1,3 ç/v
Sifariş: 91
Sayı 100

AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХИЧЕВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**УНИВЕРСИТЕТ**

На правах рукописи

**ГЮНАЙ РЗА КЫЗЫ САФАРОВА**

# ВОЗМОЖНОСТИ ИСПОЛЗОВАНИЯ ЭТНОПЕДАГОГИЧЕСКОГО МОРАЛНОГО ВОСПИТАНИЯ УЧЕНИКОВ НАЧАЛЬНЫХ КЛАССОВ

5804.01-Общая педагогика, история педагогики и образования

**АВТОРЕФЕРАТ**
диссертации на соискание ученой степени
доктора философии по педагогике

**НАХЧЫВАН – 2016**